Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Fiziki tərbiyə müəllimi hazırlığının məzmunu

*Məcidov N.B.*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** tədris planları, ixtisaslar, fənnlər, məzmun, fiziki tərbiyə müəllimi.

Tədqiqatın aktuallığı.Son illər ölkə iqtisadiyyatının yüksək inkişaf tempi, bütün sahələrdə olduğu kimi, təhsildə də ciddi irələyişlərə səbəb olmuş bütün təhsil pillələrini əhatə edən inkişaf proqramlarını, o cümlədən Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramını həyata keçirməyə əlverişli şərait yaratmışdır. Dövlət başçısı İlham Əliyev «təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının öncül istiqamətlərindən biridir» fikrini bəyan etməsi ölkədə təhsilin ən priotet sahə olduğunu göstərir, bu sistemin qarşısında mühüm vəzifələr qoyur.Təhsil sistemində islahatın zəruriliyirespublikanın sosial-iqtisadi, ictimai siyasi quruluşunda baş verən köklü dəyişikliklər ilə bağlıdır. Cəmiyyət üçün ən qiymətli kapital olan kamil insan, şəxsiyyət, yüksək ixtisaslı kadr (bizim misalda fiziki tərbiyə müəllimi) formalaşdırmaq üçün imkanların yaradılması və onların reallaşdırılması diqqət mərkəzində saxlanılır.

Hazırda müstəqil Azərbaycan Respublikasının qarşısında duran ən böyük problemlərdən biri dövrün tələblərinə cavab verən müasir təhsil sisteminin qurulmasıdır(1).2005-ci ildən Azərbaycan təhsil sistemi Boloniya təhsil sisteminə qoşulmağı və yüksək tələblərə cavab verən idman bazalarının, orta məktəblərin tikilişi, əsaslı təmiri və burada fəaliyyət göstərmək üçün bədən tərbiyəsi və idman sahəsində yüksək ixtisaslı kadrlar tələb edilir (4). Ali məktəbdə hazırlanan fiziki tərbiyə müəllimləri müasir ümumtəhsil məktəblərin tələblərinə tam cavab verə bilmir. Fizikitərbiyə müəllimi hazırlığı prosesinin təkmilləşdirilməsi üçün tədqiqat işi aparılmasına ehtiyac var.

Tədqiqatın məqsədi:Fiziki tərbiyə müəllimi hazırlığının məzmununun təkmilləşməsindən ibarətdir.

Tədqiqatın vəzifələri:
- Bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığının tədris planlarını təhlil etmək;
- Fiziki tərbiyə müəllimi hazırlığı məzmununun təcrübədə mövcud vəziyyətini müəyyənləşdirmək;
- Fiziki tərbiyə müəllimi hazırlığının elmi əsaslandırılmış məzmununu hazırlamaq.

Vəzifələrin həlli üçün ümumi qəbul edilmiş elmi pedaqoji metodlardan istifadə olunub:ədəbiyyatların təhlili, pedaqoji müşahidə, sorğu, riyazi hesablama metodları.

Tədqiqatın obyekti: Fiziki tərbiyə müəllimi hazırlığının məzmunu.

Tədqiqatın müzakirəsi və nəticələri:Aparılan tədqiqatlar zamanı müəyyən edilib ki, bədən tərbiyəsi və idman sahəsində müxtəlif istiqamətli peşələr vardır (9). Bunlara misal olaraq bir neçəsinin adlarını qeyd etmək olar:
- fiziki tərbiyə müəllimi;
- idman növləri üzrə məşqçilər;



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

- bədən tərbiyəsi və idman işləri üzrə menecer;
- idman sahəsində elmi işçilər;
- bədən tərbiyəsi və idman üzrə kütləvi səhnələr hazırlığı üzrə rejisor;
- idman psixoloqu;
- idman tibbi və reablitasiyası üzrə təlimatçılar və ya həkimlər;
- fiziki məhdudiyyəti olan insanların fiziki hazırlığı üzrə məşqçi-müəllimlər;
- orduda fiziki hazırlıq üzrə təlimatçılar;
- idman jurnalistləri və sairə.

Aparılan araşdırmalardan müəyyən olunubki, heç də hər yerdə eyni cür bədən tərbiyəsi və idman kadrları hazırlanmır (2,3,5).

I. Bir sıra ölkələrdə müxtəlif idman növləri üzrə məşqçiləri xüsusi «Məşqçi məktəblərində» hazırlayırlar.

Fiziki tərbiyə müəllimləri isə digər fənn müəllimləri kimi «Pedoqoji ali məktəblərin fiziki tərbiyə fakültələrində» hazırlanır (Türkiyə).

II. Bəzi ali məktəblərdə isə kadr hazırlığı üç istiqamətdə aparılır:

1. Uşaqlar, yeniyetmələr və aşağı dərəcəli idmançılar ilə işləyən müəllim-məşqçilər;
2. Gənclər, dərəcəli idmançılar ilə işləyən müəllim-məşqçilər;
3. Yüksək dərəcəli idmançılar, yığma komandalar ilə işləyən məşqçi-müəllim və menecerlər.

III.Həmçinin müəyyən edilibki, bir sıra ali məktəblərdə birinci və ikinci kursda ümumi fənlər üzrə dərslər keçirilir. Tələbələr üçüncü kursa keçəndə xüsusi vasitələrlə bilik və bacarıqları, onların konkret ixtisasa (fiziki tərbiyə müəllimi, seçilmiş idman növü üzrə məşqçi, idman meneceri və s.) meyli və istedadları nəzərə alınmaqla istiqamətlərə ayrılırlar. Üçüncü kursdan ayrı-ayrı ixtisaslar üzrə konkret peşə hazırlığı gedir.

Ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində kadr hazırlayan ixtisaslaşdırılmış pedaqoji alı təhsl ocağı Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasıdır. Qeyd olunan ali məktəb son illərə qədər Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Gənclər və İdman Nazirliyinin sifarişlərini yerinə yetirərək, ümumtəhsil məktəbləri üçün ali savadlı “Fiziki tərbiyə müəllimi” və idman cəmiyyətləri, məktəbələri üçün “İdman növləri üzrə məşqçi” kadrları hazırlayır. Hər iki ixtsas üzrə kadr hazırlığı bir tədris planı “Bədən tərbiyəsi və idman-050809” əsasında aprılırdı (şəkil 1).

Bu ali məktəbi «Bədən tərbiyəsi və idman» ixtisası ilə bitirmiş məzunlara verilən bakalavr diplomu bədən tərbiyəsinin bütün sahələrində işləmək hüququ verirdi. Ancaq təcrübə göstərir ki, bir neçə ixtisas üzrə eyni tədris planı əsasında hazırlanan kadrlar müəyyən bir işə düzəldikdə uzun müddətli təcrübədən sonra ixtisasa yiyələnirlər. Bu çox vaxt, vəsait tələb edir, mənəvi düşgünlük olur, ilk vaxtlarda görülən işin keyfiyyətsizliyi nəzərə çarpır, işlədiyi kollektiv tərəfindən bu kadr yaxşı qarşılanmır və s. Çox vaxt öz bacarıqsızlığını görüb gənc mütəxəssis bu sahədən uzaqlaşır (2).




Son iki ildə ADBTİA-da müxtəlif struktur dəyişiklikləri baş vermişdir və akademiyada xeyli təkmilləşdirmə işləri aparılıb. Bunlara misal olaraq, akademiyanın müəllim-professor heyyətindən xarici ölkələrdə təkmilləşdirmə



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

kurslarına göndərilib, xarici ölkələrdən qabaqcıl mütəxəssislər akademiyaya dəvət olunub, akademiyanın maddi-texniki bazası müasir tələblərə cavab verən yüksək səviyyədə təmir edilib, yeni avadanlıqla təmin olunub və bakalavr və magistr səviyyəsində yeni ixtisaslar açılıb.

Hazırda akademiyada bakalvr səviyyəsində əsas 5 tədris planı əsasında dərslər tədris olunur. Bunlar:

- “Bədən tərbiyəsi və idman-050809”;
- “Fiziki tərbiyə və çağırışa qədərki hazırlıq müəllimliyi-050107”;
- “Məşqçi-050814”;
- “Bədən tərbiyəsi və idmanda reablitasiya-050815”;
- “İdman menecmenti və komunikasiya-050816” (şəkil 2).




Tədqiqat zamanı akademiyada tədris olunan tədris planları təhlil olunub. Müəyyən edilib ki, “Bədən tərbiyəsi və idman-050809” tədris planı əsasında “Fiziki tərbiyə müəllimi və məşqçi” və ya bədən tərbiyəsi sahəsində universal ixtisasçı hazırlanır. Bu tədris planında “Fiziki tərbiyə müəllimi” hazırlığına cəmi 165 saat dərs yükü, 5 və 6-cı semestrlərdə tədris, “Məşqçi” hazırlığına isə 300 saat dərs yükü və 1-8-ci semestrlərdə tədris etmək planlaşdırılmışdı.

“Fiziki tərbiyə və çağırışa qədərki hazırlıq müəllimliyi-050107” tədris planının təhlili göstərdi ki, “Fiziki tərbiyə müəllimi” hazırlığına cəmi 135 saat dərs yükü, 2 və 3-cü semestrlərdə tədris planlaşdırıldığı halda, “Məşqçi-050814” tədris planında seçilmiş idman növü üzrə məşqçilik ixtisasına 420 saat dərs yükü verilmişdir. Burada belə bir suallar meydana çıxır:

- Niyə məşqçi hazırlığına 420 saat dərs yükü planlaşdırılır, fiziki tərbiyə müəllimi

hazırlığına isə cəmi 135 saat?

- Niyə məşqçi hazırlığı 8 semestr əhatə etdiyi halda fiziki tərbiyə müəllimi hazırlığı

cəmi 2 semestr?

- Niyə məşqçi hazırlığından buraxılış dövlət imtahanı keçirilir, fiziki tərbiyə müəllimi

hazırlığında isə yox?

Bədən tərbiyəsi təhsilinin məzmunu təlim prosesinin komponentlərindən biridir. Təhsilin məzmunu - elmi biliklər, bacarıq və vərdişlər sistemidir. Bəşəriyyətin əldə etdiyi sosial təcrübə təhsilin məzmununda öz əksini tapır. Təhsilin məzmunu üç normativ sənəddə əks olunur. Həmin sənədlər bunlardır: tədris planları, tədris proqqramları və dərsliklərdir.

Tədqiqatın gedişi zamanı bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığı ilə əlaqədar olan bir sıra xarici ölkələrin (Türkiyə, Rusiya, Almaniya, Ukraina və s.) tədris planlarının təhlili, mövcud vəziyyətin öyrənilməsi və mütəxəssislərlə aparılan söhbət və 40 il müddətində ixtisaslaşdırılmış ali məktəbdə iş təcrübəsi və bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığı ilə əlaqədar aparılan elmi tədqiqat işləri imkan verir ki, müasir tələbləri nəzərə alaraq (zaman, tədris yükü, tətil, sessiya, semestr, fənlərin seçimi, kadrların imkanları, maddi–texniki baza, tələbələrin qavrama qabliyyəti)240 kredit həcmində “Fiziki tərbiyə müəllimi” hazırlığının eksperimental tədris planının sxemi hazırlanıb təqdim edilsin (2,3,4,5).

Eksperimental tədris planı 3 fənn blokuna – ümumi, ixtisas və seçmə fənlər blokuna ayrılmışdı. Hər bir fənn blokuda öz növbəsində “Peşə yönümlü”, “Humanitar” və “Tibbi-bioloji” fənlərə bölünmüşdü (şəkil 3).



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.




Təklif olunan plana əsasən ilk I və II kurslarda ümumi fənlər blokunda olan peşə yönümlü, humanitar və tibbi-bioloji fənlər 100-120 kredit həcmində tədris edilməyi təklif olunurki, gələcək fiziki tərbiyə müəlliminin hərtərəfli hazırlıq səviyyəsini təşkil etsin.Ancaq III kursdan hər üç fənn bloku ixtisasla "Fiziki tərbiyə müəllimi" əlaqəli 100-120 kredit həcmində fənlər tədris olunmağı təklif olunur(cədvəl 1,2,3).

**İxtisas: FIZIKI TƏRBIYƏ MÜƏLLIMI ∑= 240 kredit**

**Ü M U M I F Ə N L Ə R B L O K U**

**(I və II kurs semestr 1-4∑= 120 kr.)**

**Cədvəl 1.**

| Peşə yönümlü | kr. | Humanitar | kr. | Tibbi-bioloji | kr. |
|---|---|---|---|---|---|
| İxtisasa giriş | 2 | Azərbaycan tarixi | 6 | Anatomiya | 5 |
| Bədən tərbiyəsinin ümumi əsasları | 6 | İngilis dili | 12 | Fiziologiya | 5 |
| Idmanın nəzəriyyəsi | 4 | Pedaqogika | 4 | Gigiyena | 4 |
| Bədən tərbiyəsi və idmanın tarixi | 4 | Psixologiya | 4 | Biokimya | 4 |
| Olimpiya təhsili | 4 | Elmi tədqiqatın əsasları | 3 | Biomexanika | 5 |
| Bədən tərbiyəsi və idmanın idarə olunması | 4 | İKT | 4 | İlk tibbi yardım | 4 |
| İntellektual idman növləri | 4 | Az. dili və nitq mədəniyyəti | 4 | Mülki müdafiə | 3 |
| Gimnastika | 8 | Mədəniyyətşünaslıq | 3 | | |
| Atletika | 6 | | | | |
| Üzgücülük | 4 | | | | |
| Futbol | 4 | | | | |
| ∑ | **50** | ∑ | **40** | ∑ | **30** |

**İ X T I S A S F Ə N L Ə R B L O K U**

**(III və IV kurslar semestr 5-8∑ = 108 kr)**

**Cədvəl 2**

| Peşə yönümlü | kr | Humanitar | kr | Tibbi-bioloji | kr |
|---|---|---|---|---|---|
| Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası (ixtisas fənni) | 12 | Məktəb pedaqogikası | 6 | Dinamik anatomiya | 4 |
| Adaptiv bədən tərbiyəsi | 6 | Yaş psixologiyası | 6 | Yaş fiziologiyası | 4 |
| Orduda fiziki hazırlıq | 6 | İdman etikası | 4 | Müalicə bədən tərbiyəsi | 4 |
| Mütəhərrik oyunlar | 4 | | | | |
| Basketbol | 4 | İdman estetikası | 4 | | |
| Həndbol | 4 | İdmanda "Ədalətli oyunlar" | 4 | | |
| Voleybol | 4 | Sağlam həyat tərzi | 4 | | |
| Atıcılıq | 4 | | | | |
| VMH kompleksi | 4 | | | | |
| Buraxılış işi | 4 | | | | |
| Pedaqoji təcrübə | 16 | | | | |
| ∑ | **68** | ∑ | **28** | ∑ | **12** |

**S E Ç M Ə F Ə N L Ə R B L O K U**

**(III və IV kurslar semestr 5-8∑= 12 kr.)**

**Cədvəl 3.**

| Peşə yönümlü | kr | Humanitar | kr | Tibbi-bioloji | kr |
|---|---|---|---|---|---|
| Bodminton | | Politologiya | | Masaj | |
| İdman turizmi | | Fəlsəfə | | Yoqa | |
| Velo idmanı | | Sosiologiya | | Hipnoz | |
| Fitnes | | Dillər | | | |
| Aerobika | | | | | |
| Tədbiqi sambo | | | | | |
| Stol üstü tenis | | | | | |
| ∑ | **4kr** | | **4kr** | | **4kr** |

Fənlərin keçirilmə formasını (mühazirə, seminar, metodiki məşğələ, təcrübi məşğələ, labarator məşğələ və s.) fənnin təhkim olunduğu kafedra müəyyən edir. Təqdim olunan cədvəllərdə boş olan sətirlərə əsaslandırılaraq müəyyən fənləri, tədris saatlarını nəzərə almaqla daxil etmək olar. Ümumiyyətlə "Fiziki tərbiyə müəllimi" ixtisası üzrə təqdim olunan eksperimental məzmunu təkmilləşdirmək məqsədi ilə təkliflər, iradlar müzakirə üçün qəbul olunur.

## Ədəbiyyatlar:

1. Mehrabov A.O., Azərbaycan təhsilinin müasir problemləri, B, 2007, səh. 447.

2. Məcidov N.B., Fiziki mədəniyyət sahəsində kadr hazırlığı, Gənlik və idman Bakı Elmi-nəzəri jurnal ,№2, ARGİN, 2008.

3. Məcidov N.B.,ADBTİA-da ETİ və pedoqoji kadr hazırlığı (2006-2010-cu illər), Bədən tərbiyəsi və idman sahəsində aparılan ETİ həsr edilmiş konfransın materialları, B., 2011.

4. Məcidov N.B., ADBTİA-da elmi kadr potensialı və son beşillikdə aparılan elmi işlər, Bədən tərbiyəsi və idman sahəsində aparılan ETİ həsr edilmiş konfransın materialları, Bakı, 2016.

5. Tədris planları: ADBTİA

Ukraina Milli Fiziki Tərbiyə Universiteti, Kiyev;Alman İdman Universiteti Köln

Rusiya Dövlət Fiziki Mədəniyyət, İdman və Turizm Universiteti, Moskva;



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.